# 11 AYIN SULTANI - RAMAZAN!

**Ramazan - Hicri təqviminin 9-cu ayı. İslam dininin etiqadına görə, Məhəmməd Peyğəmbərə Quran ayələrinin enməyə, eyni zamanda müsəlmanların oruc tutumağa başladığı aydır. Bu ayda oruc tutmaq İslamın beş şərtindən biridir...**



Azərbaycanda Ramazan ayı aprelin 14-də başladı. Ramazan ayı adətən 29-30 gün çəkir və ayın aypara görünümünü almasından başlanır.

Ramazan ayının 1-ci gününün duası belədir:

Oxunuşu: Əllahumməc'əl siyami fihi siyaməs-saimin və qiyami fihi qiyaməl-qaiminn və nəbbihni fihi ən nəumətil-ğafilin və həb li curmi fihi ya ilahəl-aləmin və'fu ənni ya a'fiyən ənil-mucrimin!

Tərcümə: Allahım, mənim bu aydakı orucumu həqiqi oruc tutanların oruclarından et, mənim bu aydakı gecə oyaqlıqlarımı (yaxud namazlarımı) həqiqi oyaqların oyaqlıqlarından (yaxud həqiqi namaz qılanların namazlarından) et, məni bu ayda qafillərin yuxusundan oyat, bu ayda günahımı bağışla ey aləmdəkilərin məbudu, məni bu ayda əfv et, ey günahkarları əfv edən!

Ramazan ayının fəzilətləri və bərəkətləri

İl ərzində mübarək Ramazan ayından daha əzəmətli bir ay yoxdur. Çünki bu, elə aydır ki, Allah bu ayda bəşəriyyətə ən böyük hədiyyəsini, yəni Qurani-Kərimi bəxş etmişdir. Digər tərəfdən isə Qədr gecəsi də bu aya təsadüf edir. Bu gecə insanların ləyaqətinə və mənəvi-əxlaqi təmizlik səviyyəsinə əsasən onların birillik müqəddəratı təyin olunur və həmin gecənin ibadəti min ayın ibadətindən üstündür. Ramazan ayı ibadətin baharı, təlim və tərbiyə ayı, paklıq və təmizlənmə ayı, təqva və özünüislahetmə ayıdır. Bu, elə bir aydır ki, onda Allaha yaxınlaşma mərhələlərini daha sürətlə və inamla keçmək mümkündür.

İslam Peyğəmbəri (s) mübarək Ramazan ayı ərəfəsində söylədiyi xütbələrdən birində bu ayın əhəmiyyəti haqqında belə buyurmuşdur:

"Ey insanlar! Allahın bərəkət, mərhəmət və bağışlanma ayı olan Ramazan ayı yaxınlaşır. Allahın nəzərində bu ay ən bərəkətli aydır, gündüzləri gündüzlərin ən yaxşısı, gecələri gecələrin ən yaxşısı, saatları saatların ən yaxşısıdır. Bu ayda sizlər Allahın verdiyi ziyafətə qonaq edilmiş, kəramət və ehtiramına layiq görülmüşsünüz. Bu ayda aldığınız hər nəfəs dua, yuxularınız ibadət hökmündədir. Əməlləriniz qəbul olunur. Allah dualarınızı müstəcab edir. Allahdan təmiz ürəklə, saf niyyətlə diləyin ki, bu ayda oruc tutmağı və Qurani-Kərimin tilavətini sizə nəsib etsin. Çünki allahın rəhmətinin ümman kimi dolub daşdığı bu ayda Onun mərhəmət və bağışlamasından məhrum olan insan bədbəxtdir..."

Bu sözlərdən sonra Rəsuli-Əkrəm bu ayda ehtiyacı olanlara sədəqə paylamağı, böyüklərə ehtiram göstərməyi, kiçiklərə məhəbbətlə yanaşmağı, qohum-qardaşdan xəbər tutmağı, dil, göz və qulağı günahlardan qorumağı, yetimlərə nəvaziş göstərməyi, günahlardan tövbə etməyi, davamlı olaraq dua etməyi (xüsusilə namaz vaxtlarında) təkidlə tövsiyə etdi.

Daha sonra İslam Peyğəmbəri (s) oruc tutanların başqalarına iftar verməsinin əhəmiyyəti barədə danışdı, hətta bildirdi ki, imkanı olmayan adamlar, heç olmasa, bir xurma dənəsi, yaxud bir içim su ilə bu xeyir işdə iştirak edə bilərlər.

Məhəmməd Peyğəmbər (s) öz xütbəsinin sonunda buyurdu:

"Ey insanlar! Bu ay behişt qapıları üzünüzə açıqdır. Dua edib Allahdan istəyin ki, bu qapıları üzünüzə bağlamasın. Bu ayda Cəhənnəmin qapıları bağlıdır, ona görə də Allahdan diləyin ki, həmin qapıları üzünüzə açmasın! Şeytanlar bu ay zəncirlənmişlər, Allahdan istəyin ki onların sizə ağalıq etməsinə imkan verməsin!".

Möminlərin əmiri İmam Əli (ə) buyurdu:

"Ya Rəsuləllah, bu ayda ən yaxşı əməl hansıdır?"

Buyurdu:

"Özünü günahlardan qorumaq!".

Xoşbəxt insanlar o kəslərdir ki, bu ayın ülvi dəyərlərini dərk edir, onun hədsiz-hüdudsuz bərəkətlərindən bəhrələnir, həmçinin bu ayın ibadətləri və orucu sayəsində özlərinin mənəvi və maddi problemlərini həll edirlər. Əlbəttə, mübarək Ramazan ayının maddi və mənəvi bərəkətlərindən, onun savablarından daha yaxşı bəhrələnmək üçün yalnız oruc tutmaqla kifayətlənmək olmaz, əksinə, günahlardan uzaq olmaq, özünü islah edərək mənəviyyata zidd əməllərdən kənar durmaq lazımdır.

Ramazan ayının əsas xüsusiyyətləri aşağıdakılardır:

1.Mənəvi durumda dəyişiklik;

Həzrət İmam Səccad (ə) haqqında belə nəql olunur ki, o, bu ayda büsbütün dua, ibadət, istiğfar və təkbirə qərq olurdu.

2.Müstəhəb namazlar;

Müstəhəb və nafilə namazların qılınması əzəmətli imamlarınız (ə) üçün adi və gündəlik bir iş olduğuna baxmayaraq, Ramazan ayında ikiqat əhəmiyyət kəsb edirdi. Belə ki, mübarək Ramazan ayında, eləcə də Qədr gecələrində onlar xüsusi namazlar qılırdılar.

3.Quran tilavəti;

Məsus imamlar (ə) mübarək Ramazan ayında Quran tilavətinə xüsusi diqqətlə yanaşmışlar. Həzrət İmam Səccad (ə) barəsində belə nəql olunmuşdur ki, o, mübarək ayda Qurani-Kərimi 40 dəfə oxuyub başa çatdırarmış.

4.Dua və ibadət;

Məsum imamlardan (ə) mübarək Ramazan ayı ilə bağlı xüsusi dualar gəlib çatmışdır ki, onların yalnız adlarını çəkməklə kifayətlənirik..

5.Qədr gecələrində əhya saxlamaq;

Məsumlar (ə) Qədr gecələri oyaq qalardılar. Nəinki təkcə özləri yatmaz, həm də ailə üzvlərini və övladlarını da bu gecə əhya saxlayıb ibadət etməyə təşviq edirdilər. Belə rəvayət olunur ki, İslam Peyğəmbəri (s) ayın 23-cü gecəsində ailə üzvləri içərisində yatmış olanları yuxudan oyadar, bunun üçün üzlərinə su da çiləyərdi.

Həzrət Fatimeyi-Zəhra (ə) da həmin gecə övladlarından heç birini yuxuya getməyə qoymazdı. Gündüzdən az yemək, bir qədər istirahət etməklə onları gecəyə hazırlayar və buyurardı ki, bu gecənin xeyrindən məhrum olan şəxs, həqiqətən, məhrumdur.

6.İftarın ədəb qaydaları;

İmam Sadiq (ə) buyurur ki, Məhəmməd Peyğəmbər (s) iftar vaxtı bu duanı oxuyardı:

"Allahım, Sənin üçün oruc tutduq və Sənin verdiyin ruzi ilə iftar etdik, odur ki, onu bizdən qəbul et"

Peyğəmbər (s) imkan daxilində halva, xurma kimi şirin şeylərlə, bunlar olmadıqda isə ılıq su ilə iftar edərdi.

7. Səhər və iftar vaxtlarında Qədr surəsi oxumaq;

8. İftar vermək;

İmam Sadiqdən (ə) belə rəvayət olunur: Həzrət İmam Səccad (ə) oruc tutduğu zaman göstəriş verərdi ki, bir qoyun kəsilsin, əti doğranıb qazana tökülsün. Həzrət (ə) qürub vaxtı yemək bişən qazanlara yaxınlaşıb ağzı oruc halda xörəyi qoxlayar və buyurardı:

"Kasaları gətirin, bu kasaya filankəs üçün, o birisinə isə filankəs üçün yemək çəkin!".

Beləcə bozbaşın hamısını kasalara doldurtdurar, xörək qurtarandan sonra isə özü xurma və çöreklə iftar edərdi.

9. Yoxsullara yardım etmək;

İbn Abbas deyir: "Ramazan ayı girəndə hər hansı bir xahişlə Peyğəmbərə (s) üz tutan insanların istəyi yerinə yetirilirdi".

Həzrət İmam Səccad (ə) haqqında isə belə nəql olunur ki, o, Ramazan ayının hər günü sədəqə paylayardı.

10. Qüsl;

Məhəmməd Peyğəmbər (s) mübarək Ramazan ayının sonuncu ongünlüyündə hər gecə qüsl edərdi.

11. Ramazan ayı ilə vidalaşma;

Cabir ibn Abdullah Ənsari belə nəql edir ki, Ramazan ayının cümə günündə Məhəmməd Peyğəmbərin (s) yanına getdim. Onun gözü mənə sataşanda buyurdu:

"Ey Cabir, bu cümə Ramazan ayının sonudur, odur ki, onunla vidalaş və de: Allahım, bu Ramazanı bizim üçün axırıncı oruclug ayı etmə. Əgər buna qərar vermisənsə, bizə rəhm et və bizi Öz mərhəmətindən məhrum etmə".

Bunu deyən hər kəs iki yaxşılıqdan birinə nail olacaqdır: ya Allah ona ömür nəsib edəcək və o, gələn ilin Ramazan ayını qarşılayacaq, ya da Allahın mərhəmət və bağışlamasına layiq görüləcək.

Dəyərli oxucular, çalışın heç vaxt, xüsusilə mübarək Ramazan ayında Quran tilavətini yaddan çıxarmayasınız. Quran sizin həyatınızdan qətiyyən kənarda qalmamalıdır. İmkan tapdıqca, hökmən, Quran oxuyun, Quranın tilavəti isə yalnız insanın oxuduğu ayələrin mənası haqqında dərindən düşündüyü zaman öz təsirini göstərir.

Mübarək Ramazan ayının başlaması, əslində müsəlmanlar üçün böyük bayramdır. Yaxşı olar ki, möminlər Ramazanın gəlişi münasibətilə bir-birini təbrik etsinlər və bu aydan mümkün qədər çox faydalanmağı bir-birinə tövsiyə etsinlər. Ramazan Allahın ziyafət ayı olduğundan yalnız ilahi ziyafətə ayaq basmağa layiq olan mömin insanlar bu aya daxil olub Uca və Səxavətli Allahın süfrəsi arxasında otururlar. Bu Allahın Öz kərəmi sayəsində bütün insanlar, bəlkə, dünyadakı bütün varlıqlar üçün verdiyi və hər kəsin bəhrələndiyi ümumi nemətlər süfrəsindən fərqli bir süfrədir. Bu, Allahın üstün və seçilmiş bəndələri üçün açılan xüsusi bir süfrədir.

*(Ardı var)*

**Hazırladı: İ.SABİRQIZI**

***Qeyd:** Ramazan ayının 2-ci günün duası:*

***Oxunuşu:** Əllahumə qərribni fihi ila mərzatik və cənnibni fihi min səxətikə və nəqimatikə və vəffiqni fihi liqiraəti ayatikə birəhmətikə ya ərhəmər-rahimin!*

***Tərcümə:** Allahım, məni bu ayda öz razılığına yaxınlaşdır, məni bu ayda Öz qəzəb və intiqamından uzaqlaşdır, məni bu ayda ayələrini oxumağa nail et, rəhmətin xatirinə ey mehribanların ən mehribanı!*